# Bərpa mərkəzi inşa edilir

Dövlətimiz müxtəlif cür əlilliyi olan şəxslərə göstərilən qayğını ildən-ilə artırır. Onların müavinətlərinin artırılması, məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılır. Əlillərin reablitasiyasına da xüsusi diqqət yetirilir. Ölkəmizdə əlillərin bərpa mərkəzlərinin sayı ildən-ilə çoxalır, əlillərə göstərilən xidmətlərin keyfiyyəti yüksəldilir.

Rayonumuzda ildə 1000 nəfər əlilə bərpa xidməti göstərəcək mərkəzin inşa olunmasına başlanılmışdır. Burada rayonumuzla bərabər ətraf bölgələrdən olan əlillərə də bərpa xidməti göstəriləcəkdir.

Qeyd edək ki, ölkəmizdə 2020-ci ildə açılacaq və inşasına başlanacaq bərpa mərkəzləri ildə əlavə 12,8 min şəxsə reabilitasiya xidmətinin göstərilməsinə və bu xidmətərlə təmin edilənlərin illik sayının ilk dəfə olaraq 26,1 minə çatmasına imkan verəcək.

**"Qəbələ"**

# Qəbələdə yol infrastrukturu sürətlə inkişaf edir

## Yeni körpü tikilir

Prezident İlham Əliyev fevralın 7-də "Qəbələ rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, iyirmi min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpasını başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## Əmirvan-Vəndam yolu yenidən qurulur

Qəbələ rayonunda uzunluğu 28 kilometr olan yerli əhəmiyyətli Əmirvan-Vəndam avtomobil yolunun yenidən qurulması işlərinə başlanılıb.

Sözügedən yol ötən il yenidən qurularaq istifadəyə verilən Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun davamı hesab olunur. IV texniki dərəcəyə uyğun qurulan Əmirvan-Vəndam yolunun hərəkət hissəsinin eni 6 metr, hər bir istiqamət üzrə çiyin hissələrin eni 2 metr olmaqla yol yatağının eni 10 metr təşkil edəcək. Yenidənqurma işləri zamanı mövcud 3-4 metr enində yol genişləndiriləərk 10 metrə çatdırılır.

Yolboyu mövcud suötürücü borular istismara yaramadığı üçün yeni dəmir-beton suötürücü boruların quraşdırılması və bir mövcud körpünün əsaslı olan yerlərdə avtobus dayanacaqları və əyrixətli dəmir tirlərin, hərəkətin normal təşkil üçün isə yol nişanlarının, siq-



şəkildə təmir olunması layihədə nəzərdə tutulub.

Yolun əsası hazır olandan sonra isə yolun asfaltlanması işlərinə başlanacaq. Layihənin sonuncu mərhələsində zəruri nal dirəklərinin və kilometr göstəricilərinin quraşdırılması, yolcizgi və yol-göstərici xətlərinin çəkilməsi nəzərdə tutulur.

**"Qəbələ"**

# Su çərşənbəsi

***İlaxır çərşənbələrdən birincisi olan Su çərşənbəsi bu il fevralın 25-ə təsadüf edir.***

Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilir. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarı, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yaradanın şərəfinə nəğmələr oxunur. Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var.

# Maraq dünyamız

- Axtarış sistemi "Google" "What is the loneliest number?" (azərb. "Ən tənha ədəd hansıdır?") yazdıqda nəticə kimi "1" ədədi çıxır.
- Bəbir çinlilərdə hünər və qəddar döyüşkən obrazı daşıdığı halda, xristianlarda şeytanı, cinayəti, iblisin ikinci üzünü və tamahkarlığı tərənnüm edir.
- ABŞ prezidenti Con Kennedi futbol oynayarkən belini zədələmişdi.
- Sfinks pişiyi dünyada tanınan tüksüz üç pişik növündən biridir.
- Dünya yarananandan bu günə qədərki hər şeyi 24 saata sığdırmağa çalışsaq, insanlar bu vaxtın sadəcə 1 dəqiqə 17 saniyəsini təşkil edər.
- 2011-ci ildə Yaponiyada baş verən 8,9 ballıq zəlzələ nəticəsində günlərin uzunluğu 1,8 mikro saniyə azalıb.
- Liftdə ayna qoyulmasının əsas səbəbi qapılar açılarkən kabinənin yerində olduğunu görməkdir.

**Topladı: Səfa ASLANOV.**

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Soltannuxa kənd sakini **İsrəfilov Sədri Məsim oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 265 H nömrəli (kod 40602038), JN seriyalı 265 F nömrəli (kod 40602038) və JN seriyalı 265 G nömrəli (kod 40602038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Həmzəli kənd sakini **Rzayeva Muxeycan Abduləhəd qızına** verilmiş JN seriyalı 033 G nömrəli (kod 40605018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Abdulxalıqov Xeyrəddin Seyfəddin oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 336 nömrəli (kod 40616018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** və JN seriyalı 382 F nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 4 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Novruzov Novruz İsmayıl oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 267 nömrəi (kod 40600068) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may1998-ci il tarixli 09 saylı qərarı ilə Xırxatala kənd sakini **Hacıyev Şaiq Rəmzi oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0018 nömrəli (kod 40605038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ DAİM tərəfindən Vəndam qəsəbə sakini **Həlimov Salman Saday oğluna** məxsus 36 T 126 dövlət nömrə nişanlı T-40 markalı traktora 20 fevral 2002-ci il tarixdə verilmiş AZ seriyalı 000000 nömrəli nəqliyyat vasitəsinin **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün onu tapan vətəndaşlardan həmin şəhadətnaməni Qəbələ Rayon Polis Şöbəsinə təqdim etmələri xahiş olunur.

---

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Qəbələ Ərazi İdarəsi tərəfindən **Salamov Elşən Rafiq oğluna** 8 noyabr 2012-ci il tarixdə verilmiş RX seriyalı 0046539 nömrəli (reyestr nömrəsi 406013011898, qeydiyyat nömrəsi 1912007595) **huquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən 5 dekabr 2008-ci ildə **Balağayev Elşən Əlibəşir oğluna** verilmiş MH seriyalı 0009965 nömrəli (reyestr nömrəsi 406013005873-10301 qeydiyyat nömrəsi 1908006765) **hüquqların dövlət qedyiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və həmin əmlakın **texniki pasportu** (inventar nömrəsi 406-11/72) itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 aprel 2002-ci il tarixli 03 saylı qərarı ilə Zarağan kənd sakini **Hidayətzadə İntiqam Hüseyncan oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 284 nömrəli (kod 40608018) **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə
2020-ci il üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat,
yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56
(rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



# Hörmətli oxucular!

## "Qəbələ" qəzetinin reklam xidməti sizinlədir

Siz cüzi müqavilə qiymətləri ilə böyük tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrinə yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

reklam xidmətindən istifadə edə bilərsiniz

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamların və elanları dərc etməklə də qəzet Sizin xidmətinizdədir.

İstədiyiniz vaxt gəlin, zəng edin:

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: (050) 671 06 94.
**Elektron ünvanlarımız: news@qebele-ih.gov.az, gabalanews@mail.ru**



Redaktor
Varis Yaqubov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərbaycan» nəşriyyatının mətbəəsində çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Sifariş № 651
Tiraj 1159